

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 99 (23.261)

*28 may 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

* * *

Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Rəsmi qəbul Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 25 may tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının mədəniyyət işçiləri də vardır.

**Niftəliyeva Nurbəniz Nurəddin qızı**

"Əməkdar artist"

**Əliyev Asim Yediyar oğlu**

"Əməkdar mədəniyyət işçisi" fəxri adları ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəsm Festivalının keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəssamlar Birliyinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, Naxçıvanda rəssamlıq sənətinin inkişafına dəstək olan Rəsm Festivalının təşkili və festivala həsr olunmuş albom-kataloqların, internet resurslarının hazırlanması məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Rəssamlar Birliyinə 15 (on beş) min manat vəsait ayrılsın.

2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 may 2019-cu il*

## Test imtahanlarına start verilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Dövlət Gömrük Komitəsi ilə birgə 10 aprel 2019-cu il tarixdə elan olunmuş müsabiqənin test imtahanlarına dünəndən etibarən start verib. Gömrük orqanlarına xidmətə qəbul olunmaq istəyən hər bir namizədin hazırlığının, bilik səviyyəsinin, gömrük orqanlarında xidmətə yararlı olmasının müəyyən edilməsi şəffaflıqla aparılır.

Müsabiqəyə çıxarılan 35 vakant vəzifənin tutulması üçün 176 namizəd sənəd təqdim edib. İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilir. İmtahanda qanunvericilik üzrə 85, informasiya texnologiyaları üzrə 5, məntiqi təfəkkürün yoxlanılması üzrə 10 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilir, sualları cavablandırmaq üçün namizədlərə 120 dəqiqə vaxt verilir. Namizədlərin gömrük orqanlarında xidmət etmək üçün tələb edilən keyfiyyətlərə malik olmasını müəyyənləşdirmək məqsədilə test imtahanında müvəffəqiyyət qazanan namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqdır.

Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılır. İmtahan bitdikdən dərhal sonra namizədlərə nəticəyə dair arayış təqdim olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları imtahanda müşahidəçi kimi iştirak edirlər.

Test imtahanlarının nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında (*www.dqmk.nmr.az*) yerləşdirilir. Test imtahanları 31 may 2019-cu il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

***Naxçıvan Dövlət Universitetində "Azərbaycan Respublikasının xarici siyasət prioritetləri və beynəlxalq uğurları" mövzusunda konfrans keçirilib.***

## Ali təhsil ocağında diplomatik xidmət orqanlarının 100 illik yubileyi qeyd olunub



Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər sahələrdə olduğu kimi, diplomatiya sahəsində də bir sıra mühüm nailiyyətlərin əldə edilməsindən danışıb.

Vurğulanıb ki, müstəqil Azərbaycanın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş xarici siyasət kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"Azərbaycan Respublikası diplomatik xidmət orqanları 100 ildə" adlı çıxışında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli bildirib ki, Prezident cənab İlham Əliyevin müvafiq sərəncamı ilə iyulun 9-u Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin 31 oktyabr tarixli Fərmanına əsasən yaradılan Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi Azərbaycan Respublikasının vahid xarici siyasi xəttini, Xarici İşlər Nazirliyinin müvafiq vəzifə və funksiyalarını Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirməkdədir.

Vüsal Ələkbərli onu da bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər ixtisası idarənin hamiliyinə verilib. Ötən dövr ərzində həmin ixtisasda təhsil alan tələbələrin nəzəri bilik və təcrübələrinin artırılması məqsədilə idarə əməkdaşları tərəfindən müvafiq fənlərin tədrisi təmin edilib. İstehsalat təcrübələri zamanı tələbələrə müfəssəl brifinqlər də verilib. 2015-2019-cu illərdə 48 diplomat və ya xarici nümayəndənin universitetdə görüş və mühazirələri təşkil olunub.

Tədbirdə universitetin Beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov, idarənin Siyasi məsələlər şöbəsinin müdiri Nadir Cəfərov, həmin şöbənin əməkdaşı Mina İmanova çıxış ediblər.

**Səadət ƏLİYEVA**

## Yeni təsis edilmiş Prezident təqaüdlərinin ödənilməsinə başlanılıb

Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə vətəndaşlara ödənilən təqaüd və sosial müavinətlərin məbləğləri artırılır, yeni təqaüdlər təsis edilir. Məlum olduğu kimi, ölkə başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə cari ilin aprel ayından etibarən sosial müavinətlər və təqaüdlərin məbləği artırılıb.

İnsanların güzəranının daha da yaxşılaşmasına xidmət edən və əhali arasında böyük razılıqla qarşılanan bu artım muxtar respublikamızda yaşayan sosial qayğıya ehtiyacı olan şəxsləri də sevindirib. Artıq öz müavinətlərini artımla almış vətəndaşlar dövlətimizin onların sosial vəziyyətlərinin yaxşılaşdırılmasına yönəlmiş belə qərarlarından məmnunluğunu bildirir, minnətdarlıq edirlər.

Qeyd edək ki, sosial müavinətlərin artımı ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə müharibə veteranlarına 55 manat məbləğində kommunal, nəqliyyat və digər xidmətlərə görə ödənilən sosial müavinətin əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Ölkə başçısının eyni tarixli növbəti Fərmanı ilə ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslər üçün isə 100 manat məbləğində Prezident təqaüdü təsis olunub. Artıq muxtar respublikada sözügedən təqaüdlərin də artımla ödənilməsinə başlanılıb.

Prezident təqaüdləri üzrə artımlar aprel ayının ilk günündən hesablanmaqla ödənilib. Təbii ki, həyata keçirilən bu tədbirlər əhalinin sosial müdafiəsinə göstərilən dövlət qayğısının növbəti təzahürüdür.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tələbələr *"Ədliyyə könüllüləri"* layihəsi üzrə növbəti istehsalat təcrübəsi keçiblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin hamiliyə verilmiş Hüquqşünaslıq ixtisasının II kurs tələbələri ilə "Ədliyyə könüllüləri" istiqamətverici layihəsi üzrə növbəti görüş olub.

Tələbələr əvvəlcə nazirliyin İcra və probasiya şöbəsində probasiya üzrə müasir elektron nəzarət sistemi ilə tanış olublar. Burada onlara elektron nəzarət sisteminin istifadə qaydaları izah edilib, eləcə də məhkumlar üzərində tətbiq olunan elektron nəzarət vasitəsindən istifadə edərək sistemin işlənilmə qaydası öyrədilib.

Penitensiar Xidmətdə olarkən tələbələrə xidmətin əsas fəaliyyət istiqamətləri barədə məlumat verilib. Qeyd olunub ki, xidmətin vəzifələri müəyyən müddətdə azadlıqdan məhrumetmə cəzasını, məhkumların islah işini, onların mühafizə və müşayiətini icra etmək, məhkumların reabilitasiyası və sosial adaptasiyasına köməklik etmək, habelə hüquqi maarifləndirmə göstərməkdən ibarətdir.

Notariat və qeydiyyat şöbəsində tələbələr burada yerləşən arxiv ilə tanış olublar. Onlara arxiv işinin təşkili və tənzimlənməsi barədə geniş məlumat verilib, əməkdaşlarla birlikdə sənədlərin arxivləşdirilməsi proseduru əyani şəkildə öyrədilib.

Tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Pərviz HACILI**

# Şərqin ilk müstəqil dövləti

***1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika kimi tarixə böyük hərflərlə yazılıb. Məhz həmin gün xalqımız özünün əsrlərlə arzusunda olduğu müstəqilliyinə qovuşub. Bu tarixi hadisə, ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi idi. Yaranması çox mürəkkəb bir tarixi dövrə təsadüf edən Azərbaycan Xalq Cümhuriyyəti bütün türk və müsəlman dünyasında dünyəvi təməl üzərində qurulan ilk demokratik dövlət idi.***



Birinci Dünya müharibəsində çar Rusiyasının ağır vəziyyətə düşməsi, eyni zamanda imperiya mərkəzində baş vermiş inqilab imperiyanın müstəmləkələrində yaşayan xalqların azadlıq uğrunda mübarizəyə qalxması ilə nəticələnmişdi. 1918-ci ilin fevralında yaradılmış Zaqafqaziya seymi həmin il may ayının 25-də dağıldıqdan sonra mayın 27-də seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplaşmışdır. Fraksiya Azərbaycanın idarə olunmasını öz üzərinə götürərək Azərbaycan Milli Şurasını yaratmışdır. Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən birinci iclasında Azərbaycanın müstəqil respublika elan edilməsi qərara alınmış və 6 bənddən ibarət İstiqlaliyyət Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə Azərbaycanın tamhüquqlu müstəqil dövlət, onun idarə forması isə xalq cümhuriyyəti olaraq göstərilirdi. Elə həmin gündə Milli Şuranın tapşırığı, Fətəli xan Xoyskinin başçılığı ilə 9 nəfərdən ibarət cümhuriyyətin ilk hökumət kabineti təşkil edilmişdir. Milli hökumət 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsini bağladıqdan sonra Osmanlı imperatorluğu Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət oldu.

Həmin dövrdə Bakı şəhəri Xalq Komissarları Sovetinin nəzarətində olduğu üçün 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçmüşdür. Bir gün sonra Gəncədə Milli Şura öz fəaliyyətini müvəqqəti olaraq dayandırmış və Müəssislər Məclisi çağırılanadək bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış ikinci hökumətə həvalə etmişdir. İndi milli hökumətin qarşısında duran ən böyük vəzifə Bakını işğalçılardan azad etmək, bütün ölkə ərazisində Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini bərqərar etmək idi. Buna görə də milli ordu birlikləri yaratmaq ən zəruri addım idi və iyunun 26-da müsəlman hərbi korpusunun ayrıca Azərbaycan Korpusuna çevrilməsi ilə ölkəmizdə ilk Milli Ordu yaradılmasının əsası qoyulmuşdur. Təxminən, iki ay yarımlıq bir müddətdən sonra 1918-ci il sentyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyətinin birləşmiş hərbi qüvvələrinin mübarizəsi sayəsində Bakı azad edilmiş, sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçmüşdür.

Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına uyğun olaraq hökumət tərəfindən Müəssislər Məclisinin çağırılması üçün bir sıra tədbirlər həyata keçirilsə də, ölkədə yaranmış ağır ictimai-siyasi vəziyyət parlamentə seçkilər keçirməyi çətinləşdirirdi. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq ali hakimiyyət orqanı kimi "Azərbaycan Parlamentinin yaradılması haqqında" Qanun layihəsini hazırlamış və həmin il noyabrın 19-da bu qanunu qəbul etmişdir.

Milli Şura tərəfindən təşkil edilmiş parlamentin 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında təntənəli açılışı olmuşdur. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan Parlamenti davamlı olaraq fəaliyyət göstərdiyi 17 ay ərzində müstəqil dövlət quruculuğu istiqamətində misilsiz işlər görmüşdür. Şərqdə ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilmiş, parlamentin işində Azərbaycanın ziyalı və ictimai fəal qadınları iştirak etmişlər. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycan müstəqil dövlət kimi tanınmışdır. Xalq cümhuriyyəti fəaliyyət göstərdiyi dövr ərzində 20-dən çox dövlətlə diplomatik əlaqələr yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti çox çətin və mürəkkəb dövrdə fəaliyyət göstərmişdir. Həmin dövrdə taleyüklü məsələlərdən biri də ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etmək idi. Ümumi ərazisi 113,9 min kvadratkilometrə çatan Azərbaycanın qədim Zəngəzur, Qarabağ və Naxçıvan torpaqları əsassız erməni iddiaları və təcavüzü ilə üz-üzə qalmışdı. Lakin Naxçıvan əhalisi regionun Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı və milli qüvvələrin səyi nəticəsində 1918-ci il noyabrın 18-də burada Araz-Türk Respublikası yaradılmışdır. Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Sürməli qəzalarını, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələri əhatə edirdi. Sahəsi 8,7 min kvadratkilometr, əhalisi isə 1 milyon nəfərə yaxın olan respublikanın paytaxtı Naxçıvan şəhəri idi. Araz-Türk Respublikası Naxçıvanın daşnak hücumlarından qorunmasında böyük rol oynadı. Eyni zamanda milli hökumət də Naxçıvanı qorumaq üçün imkan daxilində köməklik göstərir, siyasi dəstək verir, hərbi, iqtisadi və mədəni cəhətdən yardımlar edirdi. Naxçıvan məsələsi bir neçə dəfə Azərbaycan Parlamentində müzakirə edilmiş, erməni təcavüzünün qarşısını almaq üçün əməli tədbirlər görülmüş, Naxçıvanı Ermənistanın müvəqqəti idarəçiliyinə vermək istəyən ingilis və amerikalılarla danışıqlar aparılmış, kəskin etiraz bildirilmişdi. Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək bildirmişdir ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Naxçıvanın Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün bütün vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər.

Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək, Azərbaycanla birləşməyə hazır olduğunu bildirərək demişdir: *"İgid naxçıvanlılar, şərurlular bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi gördən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."*

Beləliklə, ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət bəzi hallarda hökumətin öz məqsədlərinə tam çata bilməməsinə səbəb olsa da, naxçıvanlıların igidliyi və qəhrəmanlığı sayəsində bu qədim diyar Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Bu qısa tarixi dövr Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərmişdir. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi".***

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi, Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edərək özünün müstəqillik mübarizəsi üçün böyük potensial yaratdı və bunun məntiqi nəticəsi kimi ötən əsrin sonlarında Azərbaycan əsrin əvvəllərində itirdiyi müstəqilliyini yenidən bərpa etdi. Lakin bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə rastlaşdı. Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, Azərbaycanın müstəqil dövlət olmasını istəməyənlər "erməni məsələsi"ndən yetərincə istifadə etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***"Bütün tarix boyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir".***

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumuş və möhkəmləndirmişdir. Bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmiş ümummilli liderin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul olunmuşdur. Həmin qərarlara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda qaldırılmışdır. Dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, cümhuriyyətin xalqımızın azadlıq və müstəqillik arzularını daha da gücləndirdiyini bildirmişdir. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələblərindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir. Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn subyekti kimi sübut etmişdir ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ləyaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir. Ötən il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ölkəmizdə təntənəli şəkildə qeyd olunmuşdur.

*Bu gün Azərbaycan iqtisadi, siyasi, hərbi gücünə görə artıq regionda lider mövqe tutmuşdur. Müstəqilliyimizin bizə verdiyi bəhrələr ölkəmizin bütün dünyada tanınmasına, qəbul olunmasına imkan vermişdir. İndi müstəqil Azərbaycan dövləti mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir, öz milli, mədəni və multikultural dəyərləri ilə dünya ölkələri üçün əsl nümunəyə çevrilir. Ulu öndərimiz tərəfindən müəyyənləşdirilmiş siyasi xəttin uğurla davam etdirilməsi Azərbaycanın müstəqilliyinin əbədi, daimi və dönməz olduğunu bundan sonra da təmin edəcəkdir.*

**"Şərq qapısı"**

## *"Azərbaycan Xalq Cümhuriyyəti: Şərqdə ilk parlamentli respublika"* mövzusunda elmi konfrans

AMEA Naxçıvan Bölməsində keçirilən elmi konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan xalqının gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə yaratdığı Azərbaycan Xalq Cümhuriyyətinin çoxəsrlik dövlətçilik tariximizdəki yeri və rolundan danışıb. Qeyd edib ki, 1918-ci il may ayının 28-də öz müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq qısa fəaliyyəti dövründə bir çox çətinliklərə baxmayaraq, tarixdə mühüm işlər həyata keçirib.

İsmayıl Hacıyev ümummilli lider Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" və "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" sərəncamlarının əhəmiyyətindən bəhs edib. Bildirib ki, ulu öndər hər zaman xalqımızın dövlətçilik tarixində parlaq rol oynayan Azərbaycan Xalq Cümhuriyyətinin, cümhuriyyət xadimlərinin fəaliyyətinə obyektiv və yüksək qiymət verib.

Akademik ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi və "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi" ilə bağlı imzaladığı sərəncamların mühüm siyasi-ictimai mahiyyət kəsb etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, hazırda da ölkə başçısı tərəfindən uğurla davam etdirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində müstəqil Azərbaycan dövləti bu gün beynəlxalq aləmdə həm daxili, həm də xarici siyasətdə uğur qazanıb.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, tarix üzrə fəlsəfə doktorları Emin Şıxəliyev, Asəf Orucov, institutun kiçik elmi işçiləri Səbuhi Həsənov və Nilufər Ağayeva məruzələrlə çıxış ediblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***28 may tarixi daha bir əlamətdar hadisə ilə tarixin yaddaşına həkk olunmuşdur. 27 il bundan əvvəl həmin gün Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində "Ümid" körpüsü açılmışdır. Bu tarix iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq baxımından mühüm əhəmiyyət daşıyır.***

# Bir millətin iki dövlətini birləşdirən körpü



Türk dünyası üçün strateji əhəmiyyət kəsb edən, Şərqlə Qərbin qovşağında, Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan tarixboyu düşmənlərin hədəfində olmuşdur. Ötən əsrin sonlarında ölkəmiz yenidən müstəqilliyini qazandığı bir vaxtda ermənilər məqsədli şəkildə Naxçıvanı blokadaya salmış, bu qədim Azərbaycan torpağını ələ keçirmək üçün yenidən məkrli planlar həyata keçirməyə başlamışdılar. Belə bir dövrdə ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublikanı işğaldan qorumuşdur. Ümummilli liderimizin bu məqsədlə həyata keçirdiyi tədbirlərdə dost və qardaş ölkə olan Türkiyə ilə əlaqələrin qurulmasının mühüm əhəmiyyəti olmuşdur.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası isə 1992-ci ilin martında qoyulmuşdur. Həmin dövrdə Naxçıvanda "Bir millət, iki dövlət" anlayışının reallığa çevrilməsi mərhələsi başlanmışdı. Ulu öndər Heydər Əliyevin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir.

Körpünün açılışında Türkiyənin ozamankı Baş naziri Süleyman Dəmirəl və Türkiyənin digər yüksək səviyyəli hökumət nümayəndələri də iştirak etmişdilər.

Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına başlanmışdır. Eyni zamanda bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan vermiş, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirmişdir. Ulu öndərimiz Heydər Əliyev körpünün açılışı zərurətini belə xarakterizə etmişdir: ***"Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum. Naxçıvan Türkiyəyə açıldı".***

Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin bugünkü səviyyəsini, Türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlər şərh edilərkən Sədərək-Dilucu körpüsünün əhəmiyyəti xüsusi vurğulanır. Çünki Sədərək-Dilucu körpüsü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olmuşdur. Ötən 27 ildə qardaş ölkənin yaxın vilayətləri ilə muxtar respublika arasında iqtisadi-ticarət və humanitar əlaqələrin inkişafı davamlı xarakter almışdır. Ali Məclis Sədrinin 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malik olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə mövcud olan qarşılıqlı əlaqələr dinamik şəkildə inkişaf edir.

Türk dünyasının birlik və həmrəyliyində də Naxçıvanın xüsusi yeri olmuşdur. 2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə iştirak etmək üçün Naxçıvana gəlməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir. 2010-cu ilin oktyabr və 2018-ci ilin dekabr aylarında Azərbaycan-Türkiyə biznes-forumlarının Naxçıvanda keçirilməsi isə iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır. 2017-ci il dekabrın 20-də Türkiyə Respublikasının ozamankı Baş naziri Naxçıvan Muxtar Respublikasına səfər etmişdir.

Hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilir. Xüsusilə iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Türkiyə hökumətinin qəbul etdiyi tənzimləmə qərarına görə Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlər tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı verilməsi isə ikitərəfli münasibətlərin uğurlu inkişafının nəticəsidir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq da ilbəil genişləndirilir.

Bu gün muxtar respublikanın sürətli sosial-iqtisadi inkişaf dinamikası, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının bölgəyə marağını artırır, Türkiyə ilə qarşılıqlı əlaqələr durmadan inkişaf edir. Artıq "Ümid" körpüsünün davamı olaraq Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının fəaliyyət göstərməsi və Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xəttinin inşası blokada vəziyyətində yaşayan Naxçıvanın qardaş ölkə ilə əlaqələrindəki tarixi rolunun bərpasına hesablanmış məqsədyönlü addımlardır.

Türkiyə ilə Naxçıvan arasında digər sahələrdə olduğu kimi, gömrük işi sahəsində də qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl iş aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Məhz bunun nəticəsidir ki, gömrük orqanlarımız 24 saat fəaliyyət göstərir. Hazırda hər iki tərəfdən gömrük infrastrukturunun modernləşdirilməsi istiqamətində görülən işlər qarşılıqlı münasibətlərə verilən önəmin ifadəsidir.

"Ümid" körpüsünün istifadəyə verilməsi, Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində taleyüklü addım olmuşdur. Bu körpü təkcə Türkiyə ilə Azərbaycanı yox, eyni zamanda Türk dünyasını birləşdirən körpü kimi mühüm əhəmiyyətə malikdir. Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilən tədbirlərin böyük tarixi əhəmiyyətə malik olmasına diqqəti çəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bizim bütün əlaqələrimiz qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsi, böyük Atatürkün və ümummilli lider Heydər Əliyevin izləri olan Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilir".***

**"Şərq qapısı"**

# Türkiyədə Nemətullah Naxçıvaniyə həsr olunmuş beynəlxalq konfrans



*Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun maliyyə dəstəyi ilə AMEA Naxçıvan Bölməsinin Gənc Alim və Mütəxəssislər Şurasının "Naxçıvandan Konyaya bir körpü: Nemətullah Naxçıvani" layihəsi çərçivəsində mayın 23-də Türkiyənin Konya vilayətində beynəlxalq konfrans keçirilib.*

Konfransda Azərbaycanın Türkiyədəki təhsil müşaviri Nəcibə Nəsibova, Ağşəhər bələdiyyə sədri Salih Akkaya, Səlcuq Universitetinin idarə heyətinin üzvləri və universitetin tələbələri iştirak ediblər. Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirildikdən sonra "Nemətullahın vətəni Naxçıvan" adlı tanıtım videoçarxına baxış olub.

Daha sonra AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova "Nemətullah Naxçıvani: Naxçıvandan Konyaya bir elm körpüsü", ilahiyyatçı Ali İhsan Türcan "Baba Nemətullah Naxçıvani və təsəvvüf", filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov "Hidayətül-İhvan əsərində elm və alim", dosent İbrahim Işıtan "Osmanlıda XV-XVI əsrlərdə təsəvvüf anlayışı", Əskişəhər Universitetinin müəllimi, doktor Rza Məmmədov "Baba Nemətullah Naxçıvani: insanca var olmaq", filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov "Nemətullah Naxçıvani irsi: tərcümə problemləri", professor doktor Doğan Yörük "Nemətullah Naxçıvaninin yaşadığı illərdə Ağşəhərdə əhali və iqtisadi həyat" mövzularında çıxış ediblər.

Bildirilib ki, qədim Naxçıvan torpağının yetirdiyi görkəmli mütəfəkkirlərdən biri, orta əsrlərdə yaşamış Nemətullah Naxçıvani türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr vermiş, təsəvvüf və təfsir alimi kimi şöhrət qazanmışdır. Onun elmi dünyagörüşünün formalaşmasında və kamilləşməsində Naxçıvan ictimai-mədəni və elmi mühitinin mühüm təsiri olmuş, ona "Baba" titulu burada yaşadığı illərdə sufi təriqəti tərəfindən rütbə kimi verilmişdir. Dərin biliyə və yüksək mənəvi keyfiyyətlərə malik olan Nemətullah Naxçıvaninin digər təfsirlərə müraciət etmədən yazdığı, "Qurani-Kərim"in elmi-nəzəri şərhi olan "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsəri islamşünaslığa böyük töhfədir. Nemətullah Naxçıvani məşhur elmi-fəlsəfi traktat, şərh və risalələrin müəllifi kimi Azərbaycan və Türkiyə elm tarixində mühüm yer tutur.



Çıxışlarda vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" 2018-ci il 29 oktyabr tarixli Sərəncamı görkəmli alimin həyat və yaradıcılığının hərtərəfli tədqiqi ilə bağlı yeni mərhələnin əsasını qoymaqla. ümumilikdə, milli və dini dəyərlərə, elmi irsə yüksək ehtiramın təzahürüdür.

Sonda Naxçıvan nümayəndə heyətinin türkiyəli alimlərə hədiyyələri təqdim olunub.

Konfrans iştirakçıları Konyanın Ağşəhər qəsəbəsində böyük alimin məzarını ziyarət ediblər.

Qeyd edək ki, adıçəkilən sərəncam ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən onun qəbrinin bərpa olunması məqsədilə tədqiqatçı mütəxəssislər tərəfindən ölçü götürülüb.

Daha sonra konfrans iştirakçıları alimin adını daşıyan İmam Hatib tam orta məktəbində olublar. Məktəbin foyesində Nemətullah Naxçıvani ilə bağlı məlumat lövhəsi və şair Elxan Yurdoğlunun Nemətullah Naxçıvaniyə həsr etdiyi şeiri yer alıb. Bildirilib ki, 2013-cü ildən fəaliyyət göstərən məktəb Ağşəhərdə göstəricilərinə görə nüfuzlu təhsil ocaqlarındandır və burada Nemətullah irsi layiqincə şagirdlərə aşılanır. Ağşəhərdə Nemətullah Naxçıvaninin adını daşıyan daha bir ünvan isə məscid binasıdır.

Naxçıvandan gələn nümayəndə heyətinə 5 cildlik "Naxçıvani təfsiri" kitabları təqdim olunub. Səfər Türkiyənin televiziya və xəbər agentlikləri tərəfindən də işıqlandırılıb.

**Ruhiyyə RƏSULOVA**

# Naxçıvan Dövlət Musiqili Dram Teatrı Türkiyədə qastrolda olub

*Azərbaycanın Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Türkiyədə qastrolda olub.*



Qars Qafqaz Universitetinin konsert salonunda Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" və "Ər" pyesləri əsasında səhnələşdirilən "Ölülər və dəlilər" tamaşası oynanılıb.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və süqutunun səbəblərindən, müasir dövlətimizin inkişaf istiqamətlərindən bəhs edib. Həmçinin qeyd olunub ki, Azərbaycan xalqı tarixin bütün dövrlərində dünya teatr mədəniyyətinə böyük töhfələr verib. Bu işdə Naxçıvan Dövlət Musiqili Dram Teatrının özünəməxsus yeri və rolu vardır.

Sonra Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev çıxış edərək Cəlil Məmmədquluzadənin yaradıcılığı, eləcə də görkəmli ədibin yubileyinin qeyd olunması ilə bağlı görülən işlərdən danışıb. Diqqətə çatdırılıb ki, ədibin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" müxtəlif illərdə Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. "Ər" pyesi isə akademik İsa Həbibbəyli tərəfindən 1987-ci ildə yazıçının arxivindən tapılaraq çap etdirilmişdir. Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" və "Ər" pyeslərini bir mövzu üzərində birləşdirərək tamaşanın uğurlu səhnə həllinə nail olmuşdur.

Qars vilayətinin valisi Türkər Öksüz, Türkiyə Silahlı Qüvvələrinin Qarsdakı ordu birləşməsinin komandanı, general-mayor Özgür Nuhut, Daxili İşlər Nazirliyinin Qars İdarəsinin rəisi Ümit Bitirik, Qarsdakı sərhəd qoşunları komandanı, polkovnik Osman Kılıç və digər rəsmi şəxslər, o cümlədən yerli ictimaiyyətin nümayəndələri tamaşaya maraqla baxıblar. Tamaşa alqışlarla qarşılanıb.

# "Şərur" Xalq Yallı Ansamblı Kiyevdə rəsmi tədbirdə çıxış edib




*Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi tərəfindən 28 May – Respublika Günü, Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə Kiyevdə rəsmi qəbul mərasimi keçirilib.*

Mərasimdə Ukrayna Xarici İşlər Nazirliyinin nümayəndələri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri və əməkdaşları, dövlət rəsmiləri, yerli kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə iştirakçılar Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə bağlı təşkil edilən Naxçıvan məhsullarının sərgisi ilə tanış olublar. Burada Naxçıvanda istehsal olunan məhsullar, o cümlədən Naxçıvanın brendi sayılan göycə nümayiş olunub.

Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev 1918-ci il 28 may tarixində müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən, mövcud olduğu 23 aylıq dövrdə diplomatiya sahəsində qazandığı mühüm nailiyyətlərdən danışıb. Azər Xudiyev qeyd edib ki, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilən xarici siyasət kursu ölkəni beynəlxalq münasibətlər müstəvisində yeni mərhələyə çıxarıb, bir çox uğurlar əldə edilib.

Ukraynanın Xarici İşlər nazirinin müavini Vasili Bodnar bildirib ki, Azərbaycan və Ukrayna arasında diplomatik əlaqələr hələ 1918-ci ildən yaranıb. Ukrayna 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanla diplomatik əlaqələri daha da inkişaf etdirib. Bu gün isə iki ölkə arasında strateji əməkdaşlıq mövcuddur.

Tədbirin sonunda "Şərur" Xalq Yallı Ansamblı rəngarəng rəqslər, qədim Şərur və Naxçıvana məxsus "Tənzərə", "Köçəri" və başqa yallıları ifa edib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

---- Journalistin qeydləri ----

# Xatırlamaq...



*Bəzən hər hansısa bir hadisə, eşitdiyin bir məlumat səni illər öncəyə aparır, yaddaşını təzələyir. Bu günlərdə əldə etdiyim bir məlumat 30 illik xatirələrimin altını üstünə çevirdi. Sevindim, qürurlandım, fəxr etdim... Və düşündüm ki, yaxın keçmişimizdəki bəzi məqamları oxuculara xatırlatmaqda fayda var.*

Nə isə, mətləbi çox uzatmadan keçirəm əsas məsələyə və uzun-uzadı da vaxtınızı almaq niyyətim yoxdur. Artıq hər kəsə məlumdur ki, muxtar respublikada enerji təhlükəsizliyi tam təmin olunub. Naxçıvan elektrik enerjisinin ixrac potensialına malikdir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən aldığım məlumatda isə qeyd olunur ki, ***aprel ayının 15-dən sonra muxtar respublikanın elektrik enerjisinə olan tələbatı 100 faizi bərpa olunan enerji mənbələri – su və günəş elektrik stansiyaları hesabına ödənilir.***

Bəlkə də, bugünkü nəsil bilməz. Lakin bizim uşaqlığımız ötən əsrin 90-cı illərinin əvvəllərinə – ən çətin dövrlərə təsadüf edib. İqtisadiyyatı çökmüş, işğal təhlükəsi ilə üzbəüz qalmış Azərbaycan ədabaz "rəhbərlərin" səriştəsizliyi ucbatından düşmüşdü qırx arşın quyunun dibinə. O illərin ən acı xatirələrindən biri də muxtar respublikada yaşanan enerji böhranı idi. Yəqin ki, Naxçıvanda elektrik enerjisinin növbə ilə verilməsini hamı yaxşı xatırlayır. Şəhərə də, kəndə də sutka ərzində 8-10 saat, bəzən bundan da az elektrik enerjisi verilirdi. Mənzillərin "qızdırılmasından" tutmuş "işıqlandırılmasına" qədər bütün proseslər iki saatdan bir közərən elektrikin "öhdəsində idi". Bu qədər yüklənmə qarşısında zağ-zağ əsən elektrik naqilləri, çoxdan ömrünü başa vurmuş transformator yarımstansiyaları isə "tab gətirməyib" tez-tez sıradan çıxırdı. Bəzən həftələrlə bir məhəllədə, kənddə işıq olmazdı. Şəhər yerlərində generator biznesi özünün "intibah" dövrünü yaşayırdı. Kəndlərdə də yeni "peşə sahələri" formalaşmışdı. Məsələn, "faza qoşanlar" və sair.

Bəs necə oldu ki, Naxçıvan Muxtar Respublikası böhrandan çıxdı, enerji təhlükəsizliyi təmin olundu?

Birincisi, ulu öndərimiz Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb fəaliyyət göstərməsi, mühüm qərarlar qəbul etməsi, xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı müstəqilliyimizi və dövlətçiliyimizi qorudu, möhkəmləndirdi, inkişafın əsası qoyuldu, xalqımız xoş günlərə qovuşdu.

İkincisi, ulu öndərin siyasi xəttinə sədaqət muxtar respublika əhalisində əminlik yaratdı ki, inkişaf üçün, əslində, heç bir bəhanə yoxdur. Sadəcə, qarşıda duran vəzifələri real şəraitə uyğun gerçəkləşdirmək lazımdır. Qısa müddətdə iqtisadi inkişaf, sosial rifah, quruculuq paralel şəkildə bütün sahələrdə müasir infrastrukturun yaradılması ilə nəticələndi. Elektroenergetika sistemi də tamamilə yeniləndi. Ötən dövrdə Naxçıvan Muxtar Respublikasında istifadəyə verilən elektrik stansiyaları nəinki əhali tələbatını ödəyir, hətta iqtisadiyyatın bütün sahələrinin, xüsusilə sənayenin inkişafına səbəb olub. Bu gün muxtar respublikada ümumi qoyuluş gücü 250 meqavata yaxın olan 5 su, 1 qaz-turbin, 1 modul və 3 günəş elektrik stansiyası fəaliyyət göstərir. Gündəlik tələbatın yay və qış aylarında 40-100 meqavat arasında dəyişməsi onu deməyə əsas verir ki, mövcud elektroenergetika potensialı çox-çox uzaq perspektivə hesablanıb.

Naxçıvan Muxtar Respublikasının elektrik enerjisinə olan illik tələbatının 60 faizindən çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir. Bundan başqa, ölkəmizdə günəş elektrik stansiyalarında istehsal olunan enerjinin 78 faizi muxtar respublikanın payına düşür. Naxçıvanın hidroenerji potensialından maksimum istifadə olunur. Hazırda Araz çayı üzərində yeni Ordubad Su Elektrik Stansiyası tikilir. Eyni zamanda Ordubad və Culfa rayonlarında külək elektrik stansiyalarının qurulması imkanları araşdırılır. Ən mühüm nailiyyətlərdən biri də Naxçıvanda elektrik stansiyalarını quran, bu sahənin işini bilən gənc mütəxəssislərin formalaşmasıdır.

Enerji təminatı Naxçıvanda ağacların qırılmasının da qarşısını alıb. Artıq muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardır.

Bu gün ulu öndərin siyasi xətti müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf, tərəqqi və sabitlik yoludur. Bu inkişafın fonunda qurulanların, yaradılanların qədrini bilmək, onlardan səmərəli istifadə etmək, gələcək nəsillər üçün qoruyub saxlamaq isə işin əsas tərəfidir. Sadəcə, arada keçmişdəki çətin günləri xatırlamaq lazımdır ki, indiki xoş günümüzün qədrini daha yaxşı bilək...

**Ülvi HÜSEYNLİ**

---

*Mayın 26-da Dövlət İmtahan Mərkəzi 2019-2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci mərhələsini keçirib.*

## Qəbul imtahanları keçirilib



İmtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə, 27 binada aparılıb.

Qəbul imtahanının birinci mərhələsinin nəticələrinə görə, müsabiqə şərtlərini ödəyən 8758 bakalavr qəbul proqramını seçərək təsdiqləyib. Onlardan 8012-si Azərbaycan, 746-sı isə rus bölməsi üzrə imtahan verib. Bakalavrların 3803-nü oğlanlar, 4955-ni qızlar təşkil edib.

İkinci mərhələdə bakalavrlara seçdikləri proqram üzrə 5-i açıqtipli olmaqla, 50 test tapşırığı təqdim olunub. Bakalavrlar bəzi proqramlar üzrə yazılı, bəziləri üzrə qabiliyyət imtahanı veriblər.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin yerləşdiyi binada keçirilib. Bunun üçün 12 imtahan zalı ayrılıb, 18 nəzarətçi, 2 imtahan rəhbəri cəlb edilib. 184 bakalavrın iştirak etdiyi imtahan saat $11^{00}$-da başlayıb və 1 saat 30 dəqiqə davam edib.

İmtahan nəticələrinin yaxın günlərdə elan edilməsi nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

* * *

Mayın 25-də saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və "İstedad-XXI əsr" hazırlıq kurslarının birgə təşkilatçılığı ilə Naxçıvan Qızlar Liseyinə qəbul imtahanı keçirilib.



İmtahanda şagirdlərə riyaziyyatdan 30, Azərbaycan dilindən 30, ingilis dilindən 10 olmaqla, ümumilikdə, 70 sualı cavablandırmaları üçün 2 saat 30 dəqiqə vaxt verilib.

Ən yüksək nəticə göstərmiş 60 şagird liseyə qəbul olunacaqdır.

Həmin gün Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə istedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsində, təlimdə sağlam rəqabətin yaradılmasında müstəsna rol oynayan məktəblilərin fənn olimpiadalarının respublika mərhələsinin final turu keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

---

## Birinciliyin qalibləri müəyyənləşib



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə Atıcılıq Mərkəzində atıcılığın tir növü üzrə ali və orta ixtisas təhsili müəssisələrinin və Heydər Əliyev adına Hərbi Liseyin komandaları arasında muxtar respublika birinciliyi keçirilib.*

Birinciliyin keçirilməsində məqsəd atıcılığın tir növünün təbliğ edilməsi, bu idman növünün kütləviliyinə nail olunması və müdafiə vərdişlərinin formalaşdırılması idi. 6 komandanın iştirak etdiyi birincilikdə, ümumilikdə, 30 idmançı mübarizə aparıb.

Birinciliyin açılış mərasimində çıxış edən federasiyanın sədri Səhət Həbibbəyli və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov muxtar respublikamızda idmana və idmançılara göstərilən dövlət qayğısından bəhs ediblər.

Vurğulanıb ki, Naxçıvanda atıcılıq idman növünün inkişafı üçün hər bir şərait yaradılıb, mərkəzdə əsaslı təmir və yenidənqurma işləri aparılıb, lazımi avadanlıqlar, müasir hədəflər və yeni silahlar alınıb.

Sonra komandalar birincilik uğrunda mübarizəyə başlayıb. Yekun nəticələrə əsasən Heydər Əliyev adına Hərbi Liseyin komandası birinci yerə layiq görülüb. Naxçıvan Tibb Kollecinin komandası ikinci, Naxçıvan Dövlət Universitetinin komandası üçüncü olub.

Qalib komandalara təşkilatçılar tərəfindən plaket və diplomlar təqdim olunub.

---

## İdmançımız dünya çempionu olub




Rumıniyanın paytaxtı Buxarest şəhərində Dünya Şotakan Federasiyasının 10-cu dünya çempionatı keçirilib.

Mundialda Azərbaycan milli komandası uğurla çıxış edib. Komandanın heyətində paytaxt şəhərə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi də yollanıb. Belə ki, 6-7 yaş qrupunda tatami üzərinə çıxan Rafiq Hüseynli iki qayda üzrə böyük uğura imza atıb. O, şobu-nihon və şobu-sanbon qaydaları üzrə dünya çempionu adına layiq görülüb.

Sonda qalib idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

---

## İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir

*Naxçıvan Muxtar Respublikasında son 24 ildə yaşıllıq sahələrinin həcmi dəfələrlə artırılaraq ümumi ərazimizin 20 faizini təşkil edir.*



Bu istiqamətdə görülən işlər cari ildə də mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir.

Mayın 25-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Naxçıvan şəhərinin sakinləri Naxçıvan-Şahbuz yolunun kənarındakı terrasda və avtobus parkının yaxınlığındakı ərazidə ağacların diblərini alaq otlarından təmizləmişlər. Həmin gün "Gənclər bağı"nda da iməcilik keçirilmiş, bağa aqrotexniki qulluq göstərilmişdir.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri Qarxun kəndinə gedən yolun kənarlarında və Yuxarı Daşarx kəndindəki 1 hektarlıq meyvə bağında ağacların diblərini alaq otlarından təmizləmiş, ağartma və suvarma işləri görmüşlər.

İməcilik günü Babək rayonunun sakinləri Naxçıvan-Culfa-Ordubad magistral yolunun Babək qəsəbəsi hissəsində, qəsəbədəki Heydər Əliyev prospektində və Hacıvar, Vayxır, Badaşqan kəndlərinə gedən yolun kənarlarında həmin aqrotexniki tədbirləri həyata keçirmişlər.

Ordubad rayonunda Naxçıvan-Ordubad magistral yolunun Dəstə, Əylis və Düylün kəndləri hissəsində, Əylis düzündəki 1 hektarlıq üzüm bağında və 10 hektarlıq qızılgül bağında yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, suvarma və ot biçini aparılmış, şəhər qəbiristanlığında təmizlik işləri görülmüşdür.

Culfa rayonunda müəssisə və təşkilatların iməcilik ərazilərində yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, ağacların dibləri alaq otlarından təmizlənərək suvarılmış, qurumuş ağacların diblərinə isladılmış dənələr basdırılmışdır.

Kəngərli rayonunda Qıvraq qəsəbə yolunun kənarlarında 400 ədəd gül kolu və 50 ədəd həmişəyaşıl ağac əkilmiş, Çalxanqala kəndinə gedən yolun kənarlarında və Qarabağlar türbəsinin qarşısındakı köhnə qəbiristanlığın ərazisində yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, ağacların dibləri alaq otlarından təmizlənmiş və ağartma işləri aparılmışdır.

Şahbuz rayonunda Naxçıvan-Şahbuz magistral yolunun kənarlarında da həmin tədbirlər həyata keçirilmişdir.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun kənarlarında, müəssisə və təşkilatların iməcilik ərazilərində yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, ağacların diblərini alaq otlarından təmizləyərək suvarmışlar.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

**Xəbərlər şöbəsi**

---

### *İtmişdir*

Alməmmədov Mahmud Murad oğlunun adına olan doğum haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Rəcəbov Əli Vəli oğlunun adına olan 0048267 nömrəli çıxarış və torpaq sahəsinin plan-ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 362